

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 166 (23.077)

*5 sentyabr 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərurlu gənclər Heydər Əliyev Muzeyini ziyarət ediblər

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı bir qrup gəncin Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinə ekskursiyasını təşkil edib. Muzeyin direktoru Ramil Orucəliyev mədəniyyət müəssisəsi barədə danışaraq bildirib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla yaradılıb və həmin ilin may ayının 10-da fəaliyyətə başlayıb.***



Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək buradakı ekspozisiya ilə tanış olub. Ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar bu gün burada nümayiş etdirilir. Muzeydəki eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə siyasi fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılıb. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir.

Muzeyin bələdçisi Əfsanə Məhərrəmova ümummilli liderin həyatını və ictimai-siyasi fəaliyyətini əks etdirən digər eksponatlar barədə məlumat verərək vurğulayıb ki, muzeyin zəngin ekspozisiyası onu seyr edən hər kəsin qəlbində dərin iz qoyur, yüksək təəssürat yaradır. Dahi şəxsiyyətin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, xüsusilə gənc nəsil üçün əsl həyat məktəbidir. Xalqımızın müqəddəs ziyarətgahına çevrilmiş muzey ulu öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ edərək gəncləri dahi Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır. Burada nümayiş etdirilən eksponatlar dahi şəxsiyyətin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, onun mənalı həyatı, zəngin və çoxşaxəli fəaliyyəti barədə faktların gənc nəslə çatdırılmasında böyük rol oynayır. Heydər Əliyev Muzeyindəki hər bir eksponat ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Həmin eksponatlar yaradıcı insanlar üçün ilham mənbəyi, elm adamları üçün isə dəyərli məlumatlar toplusudur. İl ərzində burada ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə bağlı aidiyyəti təşkilatlarla birgə elmi konfranslar keçirilir, muzeyə məktəblilərin və tələbələrin ekskursiyaları təşkil olunur, onlar üçün lektoriyaların və açıq dərslərin keçilməsi diqqətdə saxlanılır.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev muzeyi ziyarət zamanı qeyd edib ki, xalqımızın böyük oğlu Heydər Əliyev XX əsr Azərbaycan tarixində təkcə milli müstəqillik ideyasını praktik olaraq gerçəkləşdirmiş lider olmaqla yanaşı, həm də yaratdığı dövlətin möhkəmliyini, dayanıqlılığını təmin edən, onun hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəmin hazırlayan müdrik rəhbər kimi xalqımızın qəlbində yaşayır. Ona görə də xalqımız ümummilli lideri ilə fəxr edir, qürur duyur, Onun ideyalarını həyata keçirməyə çalışır. Naxçıvanın baş meydanında dahi şəxsiyyətin əzəmətlə ucalan abidəsi, zəngin eksponatlara malik olan Heydər Əliyev Muzeyinin uğurlu fəaliyyəti də bunun təzahürüdür.

*Sentyabrın 4-də Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə şəhərdə sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsi ilə bağlı tədbir keçirilib.*

## Naxçıvan şəhərində sığorta işinin təşkili müzakirə olunub



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov tədbirdə giriş sözü ilə çıxış edərək son dövrlərdə şəhərdə sığorta sahəsində görülmüş işlərdən danışıb. Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni sahədə yüksələn inkişaf dinamikası sığortaya olan tələbi daha da artırıb. İnkişaf edən cəmiyyətin bir tələbi kimi sığortaya olan marağın artmasında vətəndaşların qarşılaşdığı gözlənilməz hadisələrdən dəymiş maddi zərərlərə görə aldığı sığorta ödənişlərinin əhəmiyyəti böyükdür.

Qeyd olunub ki, muxtar respublikamızda əhali gəlirlərinin artması, iqtisadi fəallığın yüksəlməsi, öz növbəsində, sığorta münasibətlərinin də inkişafını şərtləndirir. Belə ki, müasir dövrdə insanlar evdə, işdə, yolda qarşılaşa biləcəyi hər cür gözlənilməz hadisələrdən sığorta olunmağa xüsusi əhəmiyyət verirlər. Belə gözlənilməz hadisələrlə isə insanlar hər yerdə rastlaşa bilərlər.

Diqqətə çatdırılıb ki, baş vermiş müxtəlif gözlənilməz hadisələrə qarşı vaxtında sığorta olunmaq dəymiş zərərlərin qısa müddətdə bərpa edilməsinə şərait yaradır. Belə ki, sığorta hadisələrinin vurduğu maddi zərərlərə görə verilən ödənişlər insanlara maddi kömək üçün mühüm bir vasitədir. Bunun üçün sığorta sahəsində geniş izahat-maarifləndirmə işlərinin aparılmasının zəruri olduğu vurğulanıb.

Ötən dövrdə sığorta sahəsində görülmüş işləri təhlil edən baş direktor qeyd edib ki, cari ilin 8 ayında Naxçıvan şəhəri üzrə 12 min 680 sığorta müqaviləsi bağlanılıb. Onlardan da 2485-i avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 4411-i daşınmaz əmlakın icbari sığortası olub.

Bildirilib ki, ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari qaydada sığortalanması həyata keçirilir. Çıxışda ev əmlakı, fərdi qəza sığortaları və digər könüllü sığorta növlərinin də əhəmiyyəti qeyd olunaraq bu sahədə işlərin genişləndirilməsi zərurəti də vurğulanıb.

Tədbirdə Naxçıvan şəhərində sığorta sahəsində görülmüş işlərlə bərabər, icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortaları üzrə hələ də sığorta edilməyən hüquqi və fiziki şəxslərin mövcud olduğu bildirilib.

Baş direktor vurğulayıb ki, qarşıda bu sahədə maksimum nəticə əldə etmək, əhali arasında sığorta mədəniyyətini daha da yüksəltmək və kütləviliyi təmin etmək kimi əhəmiyyətli vəzifələr durur.

Tədbirdə Naxçıvan Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi bölməsinin rəisi Rəşadət Əliyev, Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə İdarəsinin Naxçıvan Şəhər Şöbəsinin rəis müavini Nəsimi Hüseynov Naxçıvan şəhərində icbari sığortaların vəziyyəti üzrə məlumat veriblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov tədbirə yekun vuraraq şəhərdə sığorta işinin günün tələbləri səviyyəsində aparılması istiqamətində müvafiq tapşırıqlar verib.

## Diyarımızda istehsal olunan məhsullara Naxçıvandan kənarda da böyük tələbat vardır

***Bu gün muxtar respublikamız öz istehsal imkanlarını daha da artırmaqda, dünyanın 65-ə yaxın ölkəsi ilə ticarət əlaqələrini inkişaf etdirməkdədir. Məhz bu proseslərdə Naxçıvan məhsullarının əhatəsini genişləndirən istehsalın həcminin xüsusi yeri vardır. Onu da qeyd edək ki, diyarımızda təmin edilmiş sağlam iqtisadi mühit sahibkarlıq təşəbbüslərini artırmaqdadır. Artıq bu gün muxtar respublikada güclü sahibkarlıq təbəqəsi formalaşıb.***






Yeni istehsal müəssisələrinin yaradılması və əmək ehtiyatlarından düzgün istifadə edilməsi nəticəsində muxtar respublikada 382 növdə məhsul istehsal olunur. Bunun 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. Həmin məhsulların bəziləri bu gün həm xarici ölkələrə ixrac olunur, həm də ölkəmizin digər bölgələrində satışı təşkil edilir.

Çox sevindiricidir ki, artıq bu məhsullar ölkəmizin paytaxt Bakı şəhərində də özünə xeyli alıcı qüvvəsi tapıb. Naxçıvan məhsulları hər bir paytaxt sakini üçün qiymətli nemətə çevrilib və bu, əmtəələrin bazardakı mövqeyinin güclənməsinin göstəricisidir. Meyvə və tərəvəz, heyvandarlıq, ərzaq məhsullarının, mineral suların, bir sözlə, gündəlik tələbatımızı dolğun ödəyəcək əmtəələrin satışı tələb və təklif arasındakı müvazinətin qorunmasında da mühüm təsirə malikdir.

2017-ci ilin sentyabr ayında Bakı şəhərində Naxçıvan məhsullarının satışı üzrə mağaza fəaliyyətə başlayıb. Mağazada 30-dan artıq çeşid alıcıya təklif olunur.

"Naxçıvan məhsulları" mağazasında diyarımızda istehsal edilən təbii ot çayları, quru meyvələr, qovurma, "Sirab", "Badamlı", "Çınqıllı" kimi mineral sular, duz, pendir, mürəbbələr, müxtəlif ət və balıq məhsulları, çobanyastığı, solmazçiçək, səhləb, eləcə də digər məhsullar özünə yer alıb. Ekoloji cəhətdən təmiz olan bu məhsullar öz keyfiyyəti ilə müştərilərin rəğbətini qazanıb.

Babək rayonunun Nehrəm kəndindəki 143 hektarlıq üzüm bağından bu il ilk dəfə olaraq yığılan məhsulun Naxçıvan bazarları ilə yanaşı, yaxın günlərdə paytaxt Bakı şəhəri və ölkənin digər bölgələrinə də göndərilməsi nəzərdə tutulur.

Təbii ki, bu, ərzaq təhlükəsizliyinin, iqtisadi tarazlığın, sosial dayanıqlığın, bir sözlə, milli iqtisadiyyatın perspektivləri baxımından olduqca zəruri amildir. Satılan məhsulların keyfiyyətinə zəmanət var, ekoloji təmizdir.

Alıcıların həmin mağazada satılan məhsullar haqqında informasiya almaları məqsədilə ticarət obyekti haqqında xüsusi paketlər buraxılıb. Bununla bağlı fəaliyyət göstərən sayt vasitəsilə ölkə daxilində, hətta xarici ölkələrdə də bu məhsullarla onlayn tanış olmaq mümkündür.

Qeyd edək ki, bu il Gəncə şəhərində də Naxçıvanda istehsal olunan məhsulların satış mərkəzi açılıb. Burada müxtəlif meyvələrdən hazırlanan şərablar, cürbəcür şirniyyat növləri, qarışıq çərəzlər, eləcə də müalicəvi əhəmiyyətli mineral sular və meyvə şirələrinin satışı həyata keçirilir. Mağazada alıcılara Naxçıvanın kolbasa və sosisləri, qədim diyarın brendinə çevrilən duzu, müxtəlif meyvələrdən hazırlanan mürəbbələr, bəkməz, konservləşdirilmiş ət məhsulları, baldırğan və çaşır turşuları, ətri və keyfiyyəti ilə seçilən çaylar da təklif edilir.

Bütün bunlar onu göstərir ki, muxtar respublikamızın istehsal imkanları günü-gündən genişlənir, bu sahədəki potensialı artır. Bu məhsullara olan tələbatın çoxluğu yaxın gələcəkdə ölkəmizin digər bölgələrində də mağazaların fəaliyyətə başlamasına səbəb olacaqdır.

**Xəbərlər şöbəsi**

# Üzümçülük ənənəvi təsərrüfat sahələrindəndir



***Naxçıvanda üzümçülük tarixən kənd təsərrüfatı sahələri arasında xüsusi çəkiyə malik olub. Tarixə nəzər salsaq, görərik ki, hələ 3000 il öncə qədim Naxçıvan diyarında yaşayan türk tayfalarının əsas məşğuliyyətini üzümçülük təşkil edib. Ona görə də uzun illərdən bəri burada xalq seleksiyası nəticəsində çoxlu sayda qiymətli üzüm sortları yaradılaraq nəsildən-nəslə ötürülüb.***



Tarixi mənbələrdə qeyd edildiyi kimi, qədim diyarımızda tez, orta və gecyetişən, xoşagəlimli əmtəə görünüşlü, gilələrinin müxtəlif rəngləri olan ağ, qırmızı, sarı, qara və qəhvəyi kişmişi, əsgəri, xəlili, kürdəşi, həmçinin Naxçıvan hüseynisi, bəndi, bənənyari, miskalı, haçabaş, ağ tayfı, ağ aldərə, nənəqırna, Naxçıvan şanısı, Naxçıvan qara üzümü, sahibi, xan üzümü və sair üzüm sortları ulu babalarımızın bizə miras qoyub getdikləri ən gözəl nümunələrdir. Sevindirici haldır ki, dünyanın ən məhsuldar, ən keyfiyyətli, salxım və gilələrinin gözəl görkəmi ilə seçilən bu üzüm sortları nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da özünə şöhrət qazanıb. Hazırda Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitajda saxlanılan və Naxçıvan ərazisindən tapılmış VII əsrə aid üzüm salxımları ilə bəzədilmiş tunc at fiquru əyani şəkildə göstərir ki, bu diyarın yerli əhalisi çox qədimdən üzüm bitkisini necə sevib və qiymətləndirib.

Onu da qeyd edək ki, ötən əsrin 70-ci illərindən etibarən ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində respublikamızda üzümçülüyün yeni müstəvidə inkişafı təmin olunub. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü iqtisadi tədbirlər sayəsində emal müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, güclü mütəxəssis potensialı yaradılıb, üzümçülükdə xeyli uğurlar qazanılıb. Lakin 90-cı illərin əvvəllərində ölkədə hökm sürən iqtisadi gərginlik bu sahənin inkişafına öz mənfi təsirini göstərib, istehsalçılarla istehlakçılar arasında ənənəvi münasibətlərin pozulmasına və nəticədə, bir sıra üzümçülük-şərabçılıq müəssisələrinin fəaliyyətlərinin dayandırılmasına səbəb olub. Bu tendensiya qədim üzümçülük ənənələri olan Naxçıvandan da yan keçməyib.

Yalnız ölkəmiz müstəqillik əldə etdikdən və ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən Azərbaycanda üzümçülüyün inkişafına ciddi önəm verilib və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Bu gün ölkə iqtisadiyyatında xüsusi çəkisi olan üzümçülük prioritet sahələrdən biri sayılır. Belə ki, dövlətimiz tərəfindən aqrar sahənin gəlirliliyinin və ixrac potensialının artırılması, kənd əhalisinin maddi rifahının yüksəldilməsi məqsədilə bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Əhalinin təzə və keyfiyyətli süfrə üzümünə olan tələbatının daha dolğun ödənilməsi, üzüm məhsullarının ixracının artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” da belə tədbirlərin bariz nümunəsidir. Proqramın qəbulundan ötən müddət ərzində muxtar respublikamızda da bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi təmin olunub, yeni üzüm bağlarının salınmasına başlanılıb. Burada bir məsələni xüsusi vurğulamaq lazımdır ki, salınan həmin bağlarda keçmiş ənənələrdən istifadə etməklə unudulmaqda olan üzüm sortları yenidən bərpa edilib. Beləliklə, üzüm sahələrinin genişləndirilməsi, istehsalın həcmi və məhsuldarlığın tədricən artımına nail olunub. Bu gün qədim diyarımızın torpaq-iqlim şəraiti üzümçülüyün daha da inkişaf etdirilərək istehsalın artırılmasına, əhalinin müxtəlif çeşidli, yüksəkkeyfiyyətli süfrə üzümünə, şərabçılıq və digər emal müəssisələrinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Bu isə öz növbəsində, üzüm və şərabçılıq məhsullarının ixracının artırılmasına, idxalın isə azalmasına şərait yaradır.

Onu da qeyd edək ki, üzümçülüyün inkişafı üzrə dövlət proqramının uğurlu icrasının nəticəsidir ki, son illər muxtar respublikada salınan üzüm bağlarının sayı getdikcə artır. Bu sahədə aparılan ardıcıl tədbirlər hesabına muxtar respublikanın müxtəlif ərazilərində salınan üzüm bağlarından bol məhsul götürülür.

Bu günlərdə üzümçülüyün inkişafı ilə bağlı yazı hazırlamaq üçün muxtar respublikanın bir neçə bölgəsində olduq. Sahibkarlığın inkişafına böyük önəm verildiyi bir dövrdə bu sahəyə torpaq mülkiyyətçilərinin münasibətini öyrənmək istədik.

Tarixən meyvəçilik bölgəsi kimi tanınan Ordubad rayonunda son illər xeyli üzüm bağının salındığının şahidi olduq. Rayonda həyətyanı təsərrüfatlarda üzümçülük hər zaman inkişaf etdirilib. Son illərdə isə torpaq mülkiyyətçiləri pay torpaqlarında, eləcə də digər əkin növlərinin becərilməsi mümkün olmayan ərazilərdə də bu sahənin inkişaf etdirilməsinə diqqəti artırıblar.

Ordubad Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə 2017-ci ildə bölgədə 5 hektar üzüm bağı olub ki, bunun 4 hektarı barverəndir. Ötən il həmin bağlardan 51,5 ton məhsul götürülüb. Həyətyanı sahələrdə isə bol süfrə üzümü yetişdirilib. Məlumat üçün bildirək ki, cari ilin yaz iməciliklərində rayonda 1,7 hektar üzüm bağı salınıb.

Muxtar respublikanın tarixən üzümçülüyün inkişaf etdirildiyi ən böyük bölgələrindən biri də Şərur rayonudur. Bu gəlirli təsərrüfat sahəsində burada böyük təcrübə qazanılıb. Qədim diyarımızda yetişdirilən yerli üzüm sortlarının hamısına Şərurda rast gəlmək olar. Ölkə başçısının yuxarıda adıçəkilən sərəncamı rayonda üzümçülüyün əvvəlki şöhrətini özünə qaytarmağa stimul olub. Bu gün Şərurda 107 hektar üzüm sahəsi var. Ötən təsərrüfat ilində 97 hektar barverən üzümlüklərdən 1532 ton məhsul götürülüb ki, bu da əvvəlki illə müqayisədə 4,4 faiz çoxdur. Şərurlular cari ilin yaz iməciliklərində yeni üzüm bağlarının salınmasında fəallıq göstəriblər.

Üzümçülüyün inkişafında Babək rayonunun da öz yeri var. Ötən il bu bölgənin üzüm bağlarından 5848,8 ton yüksəkkeyfiyyətli məhsul götürülüb. Ümumilikdə isə rayonda 488,1 hektar üzüm bağı mövcuddur. Digər bölgələrimizdə olduğu kimi, Babək rayonunda da üzüm bağlarının sahəsinin iməciliklər yolu ilə artırılması diqqət mərkəzində saxlanılır.

*Ümumilikdə götürsək, bu gün muxtar respublikamızda üzümçülüyün inkişaf etdirilməsi üçün hərtərəfli şərait mövcuddur. Qədim diyarımızın əlverişli iqlim və torpaq xüsusiyyətləri bu ənənəvi sahənin daha da inkişaf etdirilməsinə yeni imkanlar açır. Ümid edirik ki, dövlətimizin bu sahəyə göstərdiyi qayğı, təsərrüfat sahibləri üçün əlverişli imkanların yaradılması yaxın gələcəkdə muxtar respublikamızın üzümçülük təsərrüfatında yeni mərhələnin başlanmasına stimul verəcək.*

**Gülcamal TAHİROVA**

# Sərhəd kəndlərinin infrastrukturu yenilənir



Muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Babək rayonunda da məktəb tikintisi ön plandadır. Rayonun bir sıra yaşayış məntəqələrində yeni məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Görülən tədbirlərin davamı kimi sərhəd kəndi olan Aşağı Buzqovda məktəb binası yenidən qurulub.

Üç mərtəbədən ibarət olan məktəb binasında 11 sinif otağı, 2 laboratoriya, 1 kompüter otağı, 2 elektron lövhəli sinif, şahmat sinfi, kitabxana, hərbi kabinə və idman zalı yaradılıb. Binada tikinti işləri başa çatdırılıb. Hazırda məktəbin yerləşdiyi ərazidə abadlıq işləri görülür.

Aşağı Buzqovda kənd mərkəzi də inşa olunur. Üç mərtəbədən ibarət mərkəzdə həkim ambulatoriyası, poçt, kitabxana, baytarlıq xidməti, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə və klub yerləşəcək.

Kənddə tikilən xidmət mərkəzində də işlərin böyük bir qismi başa çatıb. Hazırda mərkəzin həyətində abadlıq işləri görülür, yerə daş döşənir. Kənd yolunun kənarlarına beton kanallar çəkilir.

Kompleks quruculuq işləri Yuxarı Buzqovda da davam etdirilir. Yaşayış məntəqəsində yeni məktəb binası, kənd və xidmət mərkəzləri tikilir, yol infrastrukturu yenilənir.

# Suvarılan torpaq sahələrinin həcmi artıb

Araz çayı və Uzunoba Su Anbarından çəkilən suvarma xətlərinin yenidən qurulması nəticəsində su təminatı yaxşılaşdırılıb və yeni torpaq sahələri su ilə təmin olunub. 2015-ci ildə Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi istifadəyə verilib, 2016-cı ildə Babək rayonunda 565, Kəngərli rayonunda isə 117 hektar torpaq sahəsində, 2017-ci ildə Kəngərli rayonunun Böyükdüz kəndində 407 hektar torpaq sahəsində suvarma şəbəkəsi yaradılıb. 2018-ci ilin mart ayından etibarən həmin rayonda 410 hektar ərazini əhatə edəcək yeni qapalı suvarma şəbəkəsinin qurulmasına başlanılıb.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə, meliorasiya və irriqasiya sistemlərinin inkişafı istiqamətində görülmüş tədbirlərin nəticəsi olaraq 2017-ci ildə muxtar respublika üzrə suvarılan torpaq sahələri 60 min 768 hektara çatdırılıb. Bu da həyətyanı torpaq sahələri də daxil olmaqla, kənd təsərrüfatına yararlı torpaq sahələrinin 34,3 faizini təşkil edir. 1995-ci illə müqayisədə suvarılan torpaq sahələri 5101 hektar artıb.

Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ildə həyətyanı torpaq sahələri də daxil olmaqla, cəmi əkin sahələri 61 min 531 hektar təşkil edib. Əkin sahələrinin 4204 hektarı dövlət, 10 min 63 hektarı bələdiyyə, 47 min 264 hektarı isə xüsusi mülkiyyətdə qeydə alınıb. Xüsusi mülkiyyətdə olan əkin sahələrinin 8544 hektarı həyətyanı torpaq sahələrinin əkin altında olan hissəsidir. Beləliklə, 1995-ci illə müqayisədə həyətyanı torpaq sahələri də daxil olmaqla, cəmi əkin sahələri 33 min 114 hektar, yaxud 2,2 dəfə artıb.

**Xəbərlər şöbəsi**

# Çəkilən zəhmət yerdə qalmır

*Dövlətimiz tərəfindən aqrar sahədə həyata keçirilən tədbirlər kənd təsərrüfatının bütün sahələrinin, o cümlədən taxılçılığın inkişafına hərtərəfli şərait yaradıb. Taxılçılığa strateji əhəmiyyətli sahə kimi yanaşılmasının nəticəsidir ki, məhsul istehsalında artan temp müşahidə edilir, taxıl əkini sahələri ilbəil genişləndirilir. Bu cəhətdən cari il də istisna deyil.*



Məlumat üçün bildirək ki, ötən ilin payızında və cari ilin yazında 2018-ci ilin məhsulu üçün 61 min 935 hektar sahədə əkin aparılıb, bunun da 32 min 483 hektarını taxıl zəmiləri təşkil edib. Taxıl əkini sahələrinin 22 min 632 hektarında buğda, 9 min 851 hektarında isə arpa əkilib. Əkin sahəsinin 10 min 526 hektarı Babək rayonunun payına düşüb və əldə olunan məhsul 33 min 275 ton təşkil edib.

Taxılçılığın inkişafında rayonun Cəhri kəndinin sakinləri də fəallıq göstərirlər. Cəhri muxtar respublikanın böyük yaşayış məntəqələrindəndir. Kənd əhalisinin başlıca məşğuliyyət sahələri içərisində taxılçılıq da xüsusi yer tutur.

Bu günlərdə həmin kəndə getdik. Uzun illər taxılçılıqda yaxşı təcrübə qazanmış torpaq mülkiyyətçisi Sənan Novruzovla həmsöhbət olduq. O bildirdi ki, sahələrə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərib, taxıl zəmilərində yüksək məhsuldarlığa nail olmaq üçün sahələrin suvarılmasını, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsini diqqətdə saxlayıb. Bununla da o, 225 hektar əkin sahəsindən bol məhsul əldə edib. Bunun 135 hektarı icarəyə götürülmüş dəmyə sahə olub. O həm də 90 hektar suvarılan sahədə taxıl əkinini həyata keçirib. Bunun 210,1 hektarını buğda, 14,9 hektarını arpa təşkil edib.

Həmsöhbətim vurğuladı ki, 18 ildir, taxılçılıqla məşğuldur. Taxıl qayğı istəyən bir sahədir. Əkiləcək sahəyə toxum səpməklə və ya zəmini suvarmaqla iş bitmir. Gərək əkilən sahəni lazımi mineral gübrələrlə təchiz edəsən, ziyanvericilərə qarşı mübarizə tədbirləri görəsən, bir sözlə, bütün işləri vaxtlı-vaxtında yerinə yetirəsən. Onu da deyim ki, torpağa göstərilən qayğı, çəkilən zəhmət heç vaxt yerdə qalmır. Mən bunu neçə illərdir ki, öz fəaliyyətimdə görmüşəm. Bu il də tədarük etdiyim taxıldan payızlıq əkin üçün toxumluq götürmüşəm. Çalışıram ki, payızlıq əkin kampaniyasını vaxtında başa çatdırım. Hazırda şum qaldırılması ilə məşğuluq. 250-300 hektara yaxın sahədə taxıl əkini nəzərdə tutulub. Torpağın artıq 20-30 hektar sahəsinin şumlanma işi başa çatıb.

Müsahibim təsərrüfat işlərində 1 “Sampo 2035” markalı kombayn, 1 “Belarus 1221” traktorundan istifadə edib. Həmin texnikaları güzəştli kredit hesabına “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətindən alıb.

Sənan Novruzov onu da bildirdi ki, dövlətimiz tərəfindən hər il güzəştli qiymətlərlə mineral gübrələr, əkilən sahələrdə ziyanvericilərin qarşısını almaq üçün dərman vasitələri, məhsul istehsalçılarına yanacaq və motor yağlarına görə yardımların verilməsi taxılçılığın inkişafına göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Bütün bunların nəticəsində becərmə işlərinin səmərəsi daha da artır, məhsuldarlıq getdikcə yüksəlir.

Müsahibim deyir ki, sahibkarlığın inkişafına göstərilən diqqətin nəticəsində Cəhri kəndində müxtəlif istehsal müəssisələri və xidmət sahələri fəaliyyət göstərir. Eyni zamanda kənddəki “Ruzi” adlı un dəyirmanının sahibi olan Sənan Novruzov müəssisənin 2000-ci ildə yaradıldığını dedi. Bir gündə 3 ton buğda üyüdülən müəssisədə bütün işlər mexanikləşdirilib, 6 nəfər işlə təmin olunub. Ötən illərdə dəyirmanın istehsal sahəsi genişləndirilib və çörəkbişirmə sahəsi fəaliyyətə başlayıb.

Onu da öyrəndik ki, kənddə fəaliyyət göstərən dəyirmana təkcə Cəhri kəndindən deyil, qonşu yaşayış məntəqələrindən də taxıl üyütmək üçün məhsul gətirilir. Müəssisədə un və kəpək hazırlanır. Burada bişirilən çörək Cəhri kənd sakinləri ilə yanaşı, rayonun Nəzərabad, Didivar, Vayxır, Gülşənabad, Payız, Buzqov və digər kəndlərinə də göndərilir.

Məlumat üçün onu da bildirək ki, Sənan Novruzov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 21 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafındakı xidmətlərinə görə 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

Turizm

# Yurdumuzun ecazkar bölgəsi – Şahbuz



*Bu yazını hazırlayarkən bir neçə il əvvəl mərkəzi mətbuatda oxuduğum məqaləni xatırladım. Məqalədə deyilirdi ki, dünyanın inkişaf etmiş bəzi ölkələrinin büdcəsi turizm gəlirləri hesabına formalaşır. Bu fakt ilk baxışda mənə inandırıcı görünmədi. Sonrakı araşdırmalarımda bu qənaətin doğruluğuna inandım. Elə öz ölkəmizdə turizmin inkişafına göstərilən dövlət qayğısı, yeraltı və yerüstü sərvətlərlə zəngin olan respublikamızın dünya miqyasında həm də turizm potensialı baxımından tanıdılması başlıca amildir. Gətirdiyi gəlir də öz yerində... Azərbaycan Respublikasının müxtəlif bölgələrinin xarici turistlərin üz tutduqları ünvana çevrilməsi isə bu günün reallığıdır.*

Qürurverici ki, həmin bölgələr içərisində Naxçıvan Muxtar Respublikası ön sıralardan birindədir. Bu gün sirr deyil ki, qədim diyarımızın hər bir bölgəsi genişmiqyaslı quruculuq tədbirləri hesabına ayrı büsatdadır. Onların hər biri müasir Azərbaycan rayonunun canlı nümunəsidir. Bu ünvanlar arasında Şahbuz rayonunun da öz yeri var. Şahbuz həm də təbii və füsunkar gözəllikləri ilə turizm üçün ən əlverişli ünvanlardan biridir. Bu da bir neçə amillə bağlıdır. Qeyd edək ki, bir şəhər, bir qəsəbə və 23 kənddən ibarət olan rayonda Şahbuz şəhəri və Badamlı qəsəbəsi ilə yanaşı, Kolanı, Kükü, Biçənək, Badamlı, Külüs kimi





iri yaşayış məntəqələri, elə digər kəndləri də füsunkar təbiəti ilə bu ünvanlara üz tutanları heyran edir. Bütün kəndlərə müasir standartlara cavab verən yollar çəkilib. Ən ucqar yaşayış məntəqələrində belə, kompleks quruculuq tədbirləri həyata keçirilib, təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər infrastrukturlar üçün yeni binalar inşa edilib, onların maddi-texniki bazaları gücləndirilib. Sahibkarlığın, kənd təsərrüfatının inkişafına yaradılmış şərait insanların məşğulluğunu təmin edib, həm də onların yaşayış səviyyəsini yüksəldib.

Kiçik Qafqazın Dərələyəz silsiləsinin qərb yamaclarında yerləşən bu bölgə zirvələri göylərə çatan dağlarla əhatələnib. Küküdağ, Şişqatar, Biçənək aşırımı, Zəngəzur silsiləsində Şapur, Salvartı, Keçəldağ, Üçqardaş, Qonaqgörməz, Ağdaban dağları Şahbuza bir möhtəşəmlik bəxş edib. Adla deyilən faydalı yataqlar, min bir dərdin dərmanı olan müalicəvi bitkilər, dadlı-ləziz meyvələr, mineral sular bu yurd yerinin təbii sərvətləridir.

Şahbuzda Eneolit, Tunc, Dəmir dövrlərinə, Antik dövrə və orta əsrlərə aid olan yaşayış yerləri və qəbir abidələri bu yurdun qədim tarixindən xəbər verir.

Bu tarixi abidələrdə Şahbuzun ulu keçmişi yaşayır. Biçənək kəndindən şərqdə yerləşən Fərhad evi buraya gələn qonaqları heyrətdə qoyur. Eramızdan əvvəl birinci minilliyin sonlarına və eramızın əvvəllərinə aid olan Fərhad evi ilə bağlı xalq arasında yayılmış müxtəlif rəvayətlər turistlərə yurdun tarixini danışır. Digər bir canlı təbiət abidəsi isə Gəlin qayasıdır. Abidə Azərbaycan xalqının daşadönmə ilə bağlı inanclarını əks etdirir.

Rayonun turizm üçün əlverişli məkan sayılmasında digər amillər də var. Bunlardan biri də bölgədə təbiət qoruğunun yaradılmasıdır.

Hazırda burada 32 növ vəhşi heyvan, 127 növ quş, 1580 növ bitki qorunur. Aparılan araşdırmalar nəticəsində burada 39 fəsilədə cəmlənən 80 cinsə aid 111 növ nadir və məhvolma təhlükəsi ilə üzləşən bitki növü müəyyən edilib. Nəsli kəsilməkdə olan heyvan növlərindən qonur ayı, Avropa tüvüyü, cüyür, vaşaq, nadir bitkilərdən isə zümrüdçiçəyi, ələyəz, görgəmli çiriş, dəfinəotu, gövdəsiz yumaqotu və başqalarını qeyd etmək olar. Təqdirəlayiq haldır ki, ərazidə mövcud olan nadir bitki növlərinin çoxluğu və həmin bitkilərin gələcəkdə yoxolma ehtimalı nəzərə alınaraq ətraf mühitin ekoloji tarazlığının qorunması məqsədilə müntəzəm olaraq onların reintroduksiyası və bioekoloji xüsusiyyətlərinin öyrənilməsi işi həyata keçirilir.

Burada yaradılan İnformasiya Mərkəzində Flora, Fauna və Etnoqrafiya şöbələri fəaliyyət göstərir. Binada torpaq nümunələri, məişətdə istifadə olunan qədim alətlər, ərazidə yetişən dərman bitkilərinin herbariləri, otların ekstraktları, meyvə quruları və heyvan müqəvvaları nümayiş etdirilir.

Rayonda müasir turizm infrastrukturunu göstərən amillərdən biri də Ağbulaq kəndində yaradılmış istirahət mərkəzidir. Bu mərkəzin əhəmiyyətini təkcə burada təklif olunan rekreasiya xidmətləri ilə məhdudlaşdırmaq düzgün olmazdı. Artıq neçə ildir ki, fəaliyyətdə olan Ağbulaq İstirahət Mərkəzi muxtar respublikada həyata keçirilən sosial layihələrə də ev sahibliyi edir. Bu istirahət mərkəzi həm də muxtar respublika gənclərinin asudə vaxtlarının səmərəli keçirilməsi üçün ideal məkana çevrilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikanın kənd turizminin tətbiq edildiyi ilk yaşayış məntəqəsi olan Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün də kompleks işlər görülür. Bu tədbirlər burada yay turizmi ilə yanaşı, qış turizminin inkişafı üçün də əlverişli şərait yaradacaq.

Şahbuzun turizm potensialında Batabat yaylağı xüsusi yer tutur.



Burada gözəl şairimiz İslam Səfərlinin Batabata həsr etdiyi şeirini xatırlamamaq olmur:

*Vüqarlıdır zirvələrin, qaşların,*
*Üzə gülür qayaların, daşların,*
*Mən İslamam, öz səsimi quşların*
*Nəğməsinə qata-qata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

Batabat, doğrudan da, füsunkar bir təbiət abidəsidir. Bu abidənin hər qarışı gözəllikdən yoğurulub. Batabat özünün sıx meşəsi, buranın bitki və canlılarla zəngin biomüxtəlifliyi, birbiri ilə növbələşən landşaft mənzərələri, suyu adamın əllərini donduran Zorbulağı, dünyada, bəlkə də, bənzəri olmayan "Üzən ada"sı ilə məşhurdur. Burada insana şəfaverici xüsusiyyətlərə malik olan otların, çiçəklərin, ağac və kolların hər birinin turistlər üçün ayrıca bir dəyəri vardır. Batabat ekoloqların, təbiət dostlarının, məktəblilərin, velosiped, herbari həvəskarlarının və ya sadəcə, turistlərin sevimli məkanıdır. Bu ərazinin təbii quruluşu və yaradılmış müasir yol infrastrukturu Batabatda elmi araşdırmaların aparılmasına da şərait yaradıb. Batabat Astrofizika Rəsədxanasının burada yerləşməsi təsadüfi deyildir. Çünki coğrafi mövqe və havanın son dərəcə təmizliyi günün istənilən saatında aparılan araşdırmalar üçün çox əlverişlidir.

Şahbuz rayonunun turizm cazibədarlığının nəticəsidir ki, buraya təkcə muxtar respublikamızdan deyil, ölkəmizin digər bölgələrindən, xarici ölkələrdən də gələnlər olur.

Biz də bu günlərdə yolumuzu Batabat yaylağından salmağı qərara aldıq. Burada gördüklərimiz eşitdiklərimizdən xeyli çox oldu. Havaların bir qədər sərin keçməsinə baxmayaraq, Batabat yaylağına dincəlmək üçün gələnlər kifayət qədər idi. Qeyd edək ki, son illər bu ərazidə müalicəvi dərman bitkilərinin toplanması və satışının təşkili, ərazinin müxtəlif yerlərində muxtar respublikanın ayrı-ayrı bölgələrindən gətirilmiş arı ailələrinin saxlanılması da diqqəti çəkir.

Yaylaqda yerli vətəndaşlarla yanaşı, qardaş Türkiyə Respublikasından və Bakı şəhərindən gəlmiş qonaqlarla görüşdük. Türkiyədən gəlmiş Qurban Turanla həmsöhbət olduq. Bir neçə ildir ki, ailəsi ilə buraya gəldiyini bildirən Qurban Batabat yaylağının əsrarəngiz gözəlliyinə heyran qaldığını dilə gətirdi. Yaradılmış səliqə-sahmandan razılıqla danışdı. Batabata çəkilmiş yolun isə ən müasir standartlar səviyyəsində olduğunu dedi. Burada dincələn insanlarla tez ünsiyyət qurduğunu vurğuladı və bildirdi ki, Türkiyənin Naxçıvan Muxtar Respublikasına yaxın olan Aralıq bölgəsindəndir. Odur ki, buraya gəlib-getmək o qədər də çətin deyil. Batabatda daha çox xoşladığı bir tərəfdə oturub "Üzən ada"ya baxmaqdır. Təbiətin bu möcüzəsi onu öz sehrinə alıb. İnanmır ki, dünyanın başqa yerlərində də belə möcüzə ilə rastlaşsın.

Bakı şəhərindən gəlmiş Cavad Həsənov bildirdi ki, dünyanın bir çox ölkələrini gəzib. Sanatoriyalarda, kurortlarda olub. Batabatın verdiyi zövqü isə o ünvanların heç birindən almayıb. Şahbuz rayonu, onun səfalı kəndləri, təmiz havası, suyu, müalicəvi otları Ulu Tanrının bu qədim torpağa ən böyük hədiyyəsidir.

***Yay turizm mövsümü başa çatmaqdadır. Buna baxmayaraq, Batabat yaylağında istirahət edənlər çoxdur. Onlar arasında yerli sakinlərlə yanaşı, ölkəmizin bölgələrindən də gələnlər var. Qonaqlar diyarımızın bugünkü yaşayış səviyyəsini yaxından görür, belə bir ünvandan xoş təəssüratlarla ayrılırlar.***

**Muxtar MƏMMƏDOV**

## Qarnizon xəbərləri

### Buraxılış mərasimi keçirilib



Əlahiddə Ümumqoşun Orduda qadın hərbi qulluqçuların da cəlb edildiyi növbəti kursların başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbirdə çıxış edən zabit, məzun və valideynlər gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən gənclərə xidmətlərində uğurlar arzulayıblar.

Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Təbrik oxunduqdan sonra məzunlara sertifikatlar təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurublar.

Sonda məzunların tribuna önündən təntənəli keçidi olub.

### Xüsusi təyinatlılar birinci olub



Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında "Səmti müəyyənetmə" birinciliyi keçirilib. Əlahiddə Ümumqoşun Ordunun zabiti, mayor Vahid Məmmədov qeyd edib ki, birinciliyin keçirilməsində məqsəd hərbi qulluqçuların dözümlülüyünü yoxlamaq, kompas və xəritədən istifadə bacarığını təkmilləşdirmək, güclü idmançı və komandaların müəyyən edilməsidir. Sonra yarışın şərtləri iştirakçılara çatdırılıb.

15 komandadan 60 hərbi qulluqçunun gücünü sınadığı yarış gərgin mübarizə şəraitində keçib. Birinciliyin bütün tələblərinə ən qısa zamanda əməl edərək səmti müəyyən edənlər qalib gəliblər.

Komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci yerdə motoatıcılar, 3-cü yerdə isə tankçılar qərarlaşıblar. Fərdi və komanda hesabında ilk üçlüyə düşməyi bacaranlar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

### Artilleriyaçılar yarışıblar

Azərbaycan Ordusu üzrə keçirilən "Ən yaxşı haubitsalı özüyeriyən artilleriya divizionu" adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları da iştirak ediblər.

Plana uyğun olaraq keçirilən yarışda döyüş və döyüşə hazırlıq mərhələləri üzrə qarşıya qoyulmuş tapşırıqlar yerinə yetirilərək məqsədlərə nail olunub.

### Ən çətin manevrlər uğurla yerinə yetirilib



Əlahiddə Ümumqoşun Ordunun aviasiya bölmələrində növbəti təlim-məşq uçuşları keçirilib. Uçuşlar zamanı SU-25 hücum təyyarələri və Mİ-35 ataş-dəstək helikopterləri ilə hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf edilməsi üçün ən aşağı hündürlükdə mürəkkəb pilotoji manevrlər yerinə yetirilib.

Mİ-17 nəqliyyat-döyüş helikopterləri ilə gənc pilotların yüksək dağlıq ərazidə məhdud ölçülü meydançaya enmə vərdişləri təkmilləşdirilib.

### Təlim başa çatıb

*Əlahiddə Ümumqoşun Orduda üçpilləli, ikitərəfli olmaqla keçirilən növbəti komanda-qərargah təlimi başa çatıb.*

Təlimin birinci mərhələsində ərazidə müdafiə və hücum əməliyyatlarının qərargahlar tərəfindən planlaşdırılması, ikinci mərhələsində isə qəbul edilmiş qərarların Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması həyata keçirilib.

**Nəriman NƏCƏFOV**

# "Mənim yaradıcılığım" adlı uşaq sərgisi keçirilib

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 15 sentyabr – Bilik Gününə həsr olunmuş "Mənim yaradıcılığım" adlı uşaqların rəsm sərgisi keçirilib.***





Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edib. O, ulu öndər Heydər Əliyevin ***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır"*** müdrik kəlamını xatırladaraq bildirib ki, bu gün cəmiyyətin gələcək inkişafının əsasını uşaqlar təşkil edir. Ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən dövlət uşaq siyasəti uğurla davam etdirilir. Uşaqların istedadlarının üzə çıxarılması, mənəvi inkişafı, onların asudə vaxtlarının düzgün təşkili, cəmiyyətin mədəni həyatındakı iştiraklarını təmin etmək bu siyasətin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin tədbirlər planına əsasən təşkil olunan "Mənim yaradıcılığım" adlı uşaqların rəsm sərgisi bu istiqamətdə həyata keçirilən tədbirlərdən biridir.

Təhsil Nazirliyinin əməkdaşı Ayşən Əsgərova çıxış edərək vurğulayıb ki, muxtar respublikamızda uşaqlar milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, təhsil, idman, mədəniyyət, incəsənət və digər sahələrdə uğurlar əldə edirlər. Onlar rəssamlıq sənətinə də böyük maraq göstərirlər. Uşaqların gələcəkdə yaxşı sənət adamı kimi formalaşmasında belə tədbirlər əhəmiyyətli rol oynayır.

Çıxış edənlər balaca rəsm həvəskarlarına uğurlar arzulayıblar.

Əl işləri ilə fərqlənən balaca rəssamlara diplomlar təqdim edildikdən sonra sərgiyə baxış keçirilib. Burada İlknur Əlizadə, Tükəz Ələkbərli, Fərhad Şirinov, Kənan Zamanov, Şəhrizad Quluzadə və başqa balaca rəsm həvəskarlarının rəsmləri sərgilənib.

Uşaqların ebru, yağlı və sulu boya, rəngli qələm vasitəsilə təbiət mənzərələrindən tutmuş cizgi filmlərinin qəhrəmanları da daxil olmaqla əl işləri nümayiş etdirilib. Onların rənglər dünyası sərgiyə baxmağa gələnlərin diqqətini cəlb edib, tədbir iştirakçıları uşaqların rəsmlərinə maraqla baxıblar.

Qeyd edək ki, sərgi salonunda 38 istedadlı uşağın 100-ə yaxın əl işi nümayiş olunub. Sərginin ən balaca iştirakçısı isə 1 yaşlı Fidan Zamanlı idi.

Sonda uşaqların iştirakı ilə musiqi nömrələri səsləndirilib, şeirlər qiraət olunub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Müstəqil ölkəmizdə dövlətçiliyin təbliği, iqtisadiyyatın və sosial sahələrin inkişafı və möhkəmləndirilməsi, gənclərin əməyə və Vətənin müdafiəsinə hazırlanması kimi məsələlərin həllinin təmin olunmasında bədən tərbiyəsi və idmanın gündəlik həyatımıza daxil edilməsi aktual məsələlərdən birinə çevrilib.***

# İdmana meyillilik gənclərdə ictimai fəallığı da artırır





Dövlət başçısının həyata keçirdiyi uğurlu gənclər siyasəti, bədən tərbiyəsinin və idmanın inkişafı ölkəmizin ümumi inkişaf siyasətinin tərkib hissəsini təşkil edir. Digər tərəfdən, idmanın inkişafı ölkənin nüfuzu, beynəlxalq aləmdə tanınması deməkdir. Bu istiqamətdə dövlətimiz lazım olan bütün tədbirləri həyata keçirməklə yanaşı, ölkədə sağlam həyat tərzinin təbliğini də diqqətdə saxlayır. Fəal yaş qruplarından olan insanların əhalinin ümumi sayının 60 faizini təşkil etməsi, onların təhsil səviyyələrinin yüksək olması, xüsusən yeniyetmə və gənclərin bədən tərbiyəsi və idmana kütləvi maraq göstərmələri kimi amillər buna müsbət şərait yaradır.

Bölgələrdə olimpiya-idman komplekslərinin və digər idman obyektlərinin yaradılması, idman növlərinin inkişafına diqqətin artırılması, hər təqvim ilində əhalinin bütün yaş qruplarını əhatə edən kütləvi bədən tərbiyəsi – sağlamlıq və idman tədbirlərinin təşkili gənc nəslin fiziki və mənəvi inkişafında böyük rol oynayır. Bu baxımdan gənclərin idman sahəsinə cəlbi də xüsusilə diqqət mərkəzində saxlanılır.

Gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması hər zaman aktuallığını qoruyub saxlayıb. Sevindirici haldır ki, bu istiqamətdə bir sıra məqsədyönlü layihələr həyata keçirilir. Onu da qeyd edək ki, gənclərin idman sahəsində fəallığı onların ictimai fəaliyyətinə də müsbət təsir göstərir. Bir çox hallarda gənclərin ictimai fəaliyyəti daha çox onların idarəetmə orqanlarında, seçkili strukturlarda təmsili kimi xarakterizə edilsə də, ictimai fəallığa fərdi aktivasiya kimi baxılmamalıdır. Niyəsinə gəlincə, bu proses fərdi qaydada ictimai fəallıq nümayiş etdirən gənclərin təşkilatlanması ilə daha geniş vüsət alır. Bu baxımdan gənclərin ictimai fəallığının ilk addımları məhz onların idman sahəsindəki təşkilatlarından başlayır. Bu məsələ muxtar respublikamızda öz müsbət həllini tapıb. Diyarımızda qanunvericiliyə uyğun istənilən siyasi platformada gənclər təmsil olunur və bu imkanlar gələcəyin gənc siyasi liderlərinin yetişməsində xüsusi rol oynayır.

Bu gün Naxçıvanda gənclər mərkəzləri fəaliyyət göstərir və onların idarəçiliyi gənclərə həvalə olunur. Gənclər strategiyasına uyğun olaraq bu cür məkanların istifadəsi, Gənclər və İdman Nazirliyinin fəaliyyəti onların gələcək hədəflərinin, ambisiyalarının seçilməsinə xidmət edir.

O da qeyd olunmalıdır ki, gənclərin idman birliklərinin, qruplarının fəaliyyəti bir çox parametrlərdən asılıdır. Sosial-iqtisadi göstəricilər, təhsil səviyyəsi, şəbəkələşmə vəziyyəti və onların doğru istiqamətləndirilməsi fəaliyyətin profili üçün əsas amillərdəndir. Muxtar respublikada gənclər üçün sosial mərkəzlərin idarə edilməsi, gənclərlə iş sahəsində çalışan kadrların öz bilik və bacarıq səviyyələrinin artırılması gənclərin təşkilatlanmasına öz müsbət təsirini göstərir.

Bu gün naxçıvanlı gənclər müxtəlif ictimai təşkilatlarda sıx birləşiblər. Uğurlu şəbəkələşmə, müxtəlif universitetlərdən olan tələbələr arasında daha sıx əlaqələrin qurulması onların muxtar respublikanın gənclər siyasətində də aktiv şəkildə iştirak edərək gələcəkdə daha hazırlıqlı kadr kimi formalaşmasında böyük önəm daşıyır. Bu da onların ictimai fəallığını daha da artırmış olur.

Muxtar respublikamızda gənclərin idman siyasətinin geniş vüsət aldığı bir zamanda onların təşkilatlanması, bir araya gəlməsinin ən asan və səmərəli yolu isə sosial şəbəkələrdir. İctimai fəaliyyəti geniş olan, eyni zamanda idman sahəsində uğur qazanan gənclər beynəlxalq sosial paylaşma platformalarında dövlətçiliyin, vətənpərvərliyin təbliğində də əsas rol oynayırlar. İctimai fəaliyyəti müsbət yöndə olan gənclərin təşkilatlanması, müəyyən amal ətrafında birləşmələri onların siyasi ideologiyalarının formalaşmasına yol açır.

Bir sözlə, bütün sahələrdə gənclər üçün əlverişli mühitin yaradılması onların gələcək inkişafı baxımından əhəmiyyətlidir. Bu isə ilk növbədə, güclü dövlətin mövcudluğu ilə bağlıdır. Bu halda gənclər də öz potensiallarını hərəkətə gətirə bilərlər. Qürurverici haldır ki, bu gün naxçıvanlı gənclər onlar üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə çalışırlar. Bu da onların ictimai fəallığını artırmalarına öz müsbət təsirini göstərir.

✍ **Ceyhun MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Alıcıya keyfiyyətli olmayan mal satıldıqda alıcı hansı hüquqlara malikdir?*

***Cavab:*** Alıcıya keyfiyyətli olmayan mal satıldıqda, habelə istehlakçının tələblərini ödəməyən lazımi keyfiyyətli qeyri-ərzaq malı satıldıqda istehlakçının hüquqları ilə bağlı məsələlər müvafiq qanunvericiliklə tənzimlənir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 624-cü və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin tələblərinə görə alıcının müqavilə və ya digər qaydalarla müəyyən olunmuş zəmanət müddəti ərzində aldığı malda qüsur və ya saxtalaşdırma aşkar edərsə (yəni alıcıya lazımi keyfiyyətli olmayan qüsurlu mal satıldıqda), öz istəyinə görə satıcıdan və ya istehsalçıdan aldığı malı lazımi keyfiyyətli malla dəyişdirməyi, satış qiymətini uyğun məbləğdə azaltmağı, malın qüsurlarının satıcı tərəfindən təxirə salınmadan əvəzsiz qaydada aradan qaldırılmasını, malın qüsurlarının aradan qaldırılmasına alıcının çəkdiyi xərclərin əvəzinin ödənilməsini, qüsurlu malın həmin mala uyğun digər modelli (markalı, tipli və sair) mal ilə dəyəri yenidən hesablanma şərti ilə əvəz edilməsini və alqı-satqı müqaviləsinin ləğv edilməsini, yəni malın geri qaytarılması və çəkdiyi zərərin ödənilməsini tələb etmək hüququ vardır.

Alıcıya keyfiyyətsiz ərzaq malı satılan halda isə keyfiyyətsizlik malın yararlılıq müddəti ərzində aşkar olunarsa, satıcı həmin malı keyfiyyətli mal ilə dəyişdirməli və ya həmin malın dəyərinin məbləği alıcıya qaytarılmalıdır.

Satıcı alıcıdan keyfiyyətli olmayan malı geri götürməyə və alıcının yuxarıda göstərilən tələblərindən birini yerinə yetirməyə borcludur. Alıcının malı dəyişdirmək tələbi olduqda tələb verilən andan 14 gün müddətində yoxlanılmalı və ya öz aralarında razılaşdırılmış müddət ərzində dəyişdirilməlidir. Qüsurlu malı dəyişdirmək tələbi mal olmadıqda isə müvafiq tələbin verildiyi andan iki ay müddətində ödənilməlidir. Göstərilən müddət ərzində malı dəyişdirmək mümkün olmadıqda alıcı digər tələblərinin yerinə yetirilməsini tələb edə bilər. Qeyd etmək lazımdır ki, alıcı keyfiyyətli olmayan malın dəyişdirilməsi və geri qaytarılması ilə bağlı tələblərini o zaman verə bilər ki, satıcı tərəfindən ona keyfiyyətli olmayan mal satılsın və satılan malın qüsurları barədə ona əvvəlcədən bildirilməsin.

Bununla yanaşı, qanunvericilikdə lazımi keyfiyyətli, lakin istehlakçının tələblərini ödəməyən qeyri-ərzaq malının dəyişdirilməsi və ya geri qaytarılması ilə bağlı hallar müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 623-cü və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin tələblərinə görə lazımi keyfiyyətli qeyri-ərzaq malı formasına, ölçüsünə, rənginə görə istehlakçıya yaramırsa, onun tələbatını ödəmirsə və ya digər səbəblərə görə təyinatı üzrə istifadə oluna bilməzsə, istehlakçının malın alınma günü sayılmamaq şərti ilə 14 gün ərzində həmin malı alındığı yerdə uyğun mala dəyişdirmək hüququ vardır.

Lakin qanunvericilikdə istehlakçının tələblərini ödəməyən keyfiyyətli malın alındığı yerdə uyğun mala dəyişdirilməsi üçün bəzi şərtlər müəyyən edilmişdir.

Belə ki, alıcı tərəfindən əldə edilmiş keyfiyyətli mal istifadə olunmayıbsa, onun əmtəə görünüşü, istehlak xassələri, plombu, yarlığı, mal və ya kassa qəbzi və ya mal ilə birlikdə verilmiş digər sənədləri saxlanılıbsa, yalnız bu halda satıcı tərəfindən dəyişdirilə bilər. Malın dəyişdirilmə anında satışda uyğun mal yoxdursa, yalnız bu halda alıcı dəyəri yenidən hesablanmaqla, istənilən başqa bir mal almaq və ya satışa uyğun mal gələn kimi onu dəyişdirmək və ya malı qaytararaq ödədiyi məbləğ dəyərində pulu geri almaq hüququna malikdir.

Lakin bir sıra mallar vardır ki, onlar dəyişdirilməyən mallar siyahısındadır. Bu malların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində pərakəndə ticarət obyektlərində dəyişdirilməli olmayan malların siyahısı haqqında" 1998-ci il 21 may tarixli 114 nömrəli qərarı ilə təsdiq edilmişdir.

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) mətbuat xidməti***

# AMEA Naxçıvan Bölməsi elmi-tədqiqat müəssisələrinə direktor vəzifəsini tutmaq üçün müsabiqə elan edir

*Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru – 1 yer*

*İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru – 1 yer*

*Bioresurslar İnstitutunun direktoru – 1 yer*

*Təbii Ehtiyatlar İnstitutunun direktoru – 1 yer*

*Batabat Astrofizika Rəsədxanasının direktoru – 1 yer*

*Əlyazmalar Fondunun direktoru – 1 yer*

Müsabiqədə yerlərə uyğun olan elmlər doktorları və fəlsəfə doktorları iştirak edə bilərlər. Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi***
***Təhsil və kadrlar şöbəsi***
***Telefonlar: 544-65-97; 545-16-80***

## İtmişdir

Naxçıvan şəhəri, 48-ci məhəllə, döngə 2, ev 5-də yaşayan Sadiqova Tovuz Abdulla qızının adına olan 10628 inventar nömrəli texniki pasport və MH-0037072 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 623